**Enerji statistikasına dair Oslo qrupunun**
**8-ci iclası Bakıda keçirilir**




BMT-nin Statistika Komissiyasının 2005-ci ildə keçirilmiş 36-cı sessiyasında yaradılmış və hazırda Azərbaycanın da təmsil olunduğu Enerji statistikası üzrə Oslo Qrupunun 8-ci iclası Bakıda öz işinə başlamışdır.

İşçi qrupun əsas məqsədi BMT-nin "Enerji statistikası üzrə beynəlxalq tövsiyələr", habelə beynəlxalq səviyyədə qəbul olunmuş digər tövsiyələr çərçivəsində daha detallı, qabaqcıl təcrübələri və praktiki statistik aspektləri əhatə edəcək "Enerji statistikasının aparılmasına dair vəsait"in son versiyasının hazırlanmasıdır.

Tədbirdə 21 xarici ölkədən və 3 beynəlxalq təşkilatdan ümumilikdə 31 nümayəndə iştirak edir.

Tədbirin gündəliyinə uyğun olaraq enerji statistikasına dair vəsaitin fəsilləri müzakirə olunacaq, üstün təcrübələrlə bağlı təqdimatlar olacaq, qarşıda duran vəzifələr müəyyənləşdiriləcəkdir.

Tədbir Dövlət Statistika Komitəsində 4 gün davam edəcək.

